DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 12 (374) / DEKABR 2022-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA ŞƏKİ XAN MƏSCİDİ KOMPLEKSİNDƏ APARILMIŞ BƏRPA İŞLƏRİ İLƏ TANIŞ OLUBLAR



Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya kompleksdə aparılmış bərpa işləri barədə məlumat verib.

Bildirilib ki, Şəki Xan məscidi kompleksi əsaslı bərpa işlərindən sonra istifadəyə verilib. Tarixi Şəki Xan məscidində bərpa işləri 2021-ci ilin may ayından etibarən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanı nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə tədqiqatların aparılmasına da dəstək göstərib.

Qeyd edilib ki, məscid kompleksi ərazisindəki bərpa işləri Dövlət Turizm Agentliyinin sifarişi ilə Memarlıq və İnşaat Universiteti tərəfindən hazırlanan layihə əsasında aparılıb. Ölkə əhəmiyyətli abidə siyahısında olan məscid xanlıqlar dövrünə (1745-1750-ci illər) aid edilir. Tarixi məlumatlara və üzərində qeyd edilən kitabələrə əsasən, məscid Hacı Məhəmmədhüseyn xan tərəfindən inşa olunub.

Məscidin yanında yerləşən qəbiristanlıqdakı əsas 13 qəbir xan nəslinin nümayəndələrinə aiddir. Qəbiristanlıqda yalnız xan nəslinin nümayəndələri dəfn olunduğundan "Xan qəbiristanlığı" adı verilib.

Diqqətə çatdırılıb ki, məscidin 21 metrlik minarəsi bişmiş kərpic və əhəng məhlulundan istifadə edilməklə inşa olunub. Burada eyvana qalxmaq üçün dairəvi pilləkən var. Məscidin ön fasadında olan tağvari eyvan isə məscidə xüsusi gözəllik verir. Məscidin bərpası layihəsi 1981-ci ildə hazırlansa da, sonrakı illərdə heç bir iş görülməyib.

Heydər Əliyev Fondu tərəfindən 2021-ci ildə başlanan bərpa işləri çərçivəsində əvvəl Şəki şəhərinin "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən Xan məscidi kompleksində 3D ölçmə işləri aparılıb. Bu işlər məscid kompleksinin ilkin görüntüsünün əldə edilməsi baxımından əhəmiyyətli olub. Ərazidə yerləşən tikililər - məscidin əsas binası və minarə, yardımçı tikililər, kompleks ərazisinin hasarı və orada yerləşən məzarlıq skan edilib, məscidin 3D modeli hazırlanıb. Məscid kompleksinin əldə olunan ilkin görüntüsü əsasında aparılan bərpa işləri zamanı iqlim təsirinə görə yararsız hala düşən kərpiclər yeniləri ilə əvəzlənib, yeri bişmiş kərpiclə yenidən döşənib. Minarədə olan kərpicləri eroziyadan mühafizə etmək üçün xüsusi materiallarla izolyasiya qatı yaradılıb. Eyni zamanda, məscidin ilkin tikintisi zamanı olan pəncərələr və Məhəmmədhüseyn xanın istifadə etdiyi qapı bərpa edilib. Memarların rəyi əsasında yerli memarlıq atributlarından olan şəbəkədən istifadə edilməklə pəncərələrdən ikisinin əvvəlki görüntüsü qaytarılıb.

Məscid tavanının fotosu olmadığından Dövlət Turizm Agentliyinin və layihəçilərin birgə qərarı əsasında Gödək minarə məscidi və Şəki Xan Sarayının tavanında olan şəbəkə quruluşunda yeni tavan yığılıb. Binanın daxili və xarici divarları 1961-ci ilin fotoları əsas götürülərək bərpa olunub.

Məlumat verilib ki, məscidin həyətindəki köhnə su hovuzunun əvəzinə yeni hovuz inşa olunub. Həyətdəki Xan çinarları və digər ağaclar ətrafında mühafizə zonası yaradılıb. Layihəyə uyğun olaraq məscid ərazisində xeyir-şər evi, dəstəmazxana, inzibati otaqlar tikilib. Məscidin qədim giriş darvazası və pilləkənləri, o cümlədən onun cənubunda yerləşən Xan qəbiristanlığındakı qəbir daşları bərpa edilib.

Məsciddə bərpa işləri çərçivəsində 2021-ci ilin iyun ayında mehrabın altı qazılarkən oradan böyük ölçülü sal daşlar aşkar edilmişdi. Bu səbəbdən həmin hissədə bərpa işləri dayandırılmış və Şəki arxeoloji ekspedisiyası tərəfindən yoxlamalar aparılmış, ekspedisiyanın tədqiqatı və qazıntı işləri nəticəsində həmin hissədə qəbir aşkar olunmuşdur. Qəbirdən 52 muncuq və tunc təsbeh başlığının tapılması dəfn olunanın yüksək dini və ya dövlət statuslu şəxs olması ehtimalını yaradırdı. Bu ehtimallar, eləcə də Salman Mümtazın əsərində Şəki xanı Məhəmmədhüseyn xan Müştağın Xan məscidinin mehrabının altında dəfn edilməsinə dair məlumatın olması digər fərqli tədqiqatlarda da bu barədə olan məlumatlar əsas götürülməklə aşkarlanan tapıntılar üzrə yoxlamalar aparılmışdı. Mütəxəssislərə dəstək məqsədilə Heydər Əliyev Fondunun köməyi ilə aşkar olunan skeletdən nümunələr götürülüb, radiokarbon və genetik analizlər aparmaq üçün Böyük Britaniyanın Oksford Universitetinin laboratoriyasına göndərilib. Aşkar olunan skelet nümunələri və məscid ərazisindəki xan nəslinə aid digər qəbirlərdən götürülən nümunələr əsasında Böyük Britaniya ilə yanaşı, Avstriya, Estoniya və Türkiyədə də tədqiqatlar, genetik analizlər aparılıb. Laborator analizlərin nəticəsinə, eləcə də AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi rəyinə əsasən, aşkar edilən qəbirin Şəki xanı Məhəmmədhüseyn xana aid olduğu təsdiqlənib.

davamı səh. 2

## BAKIDA "PREZİDENT İLHAM ƏLİYEV SİYASƏTİ: DÜNYƏVİLİK VƏ MULTİKULTURAL DƏYƏRLƏR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Səh. 3

## "DÜNYƏVİ DÖVLƏTDƏ DİNİN YERİ VƏ ROLU"



Səh. 5

## GƏNCƏDƏ "BÖYÜK QAYIDIŞ: DİNİ, MƏNƏVİ VƏ MULTİKULTURAL ASPEKTLƏR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Səh. 7

## "İLHAM ƏLİYEV SİYASƏTİ: DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI HARMONİYA" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB



Səh. 9

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA ŞƏKİ XAN MƏSCİDİ KOMPLEKSİNDƏ APARILMIŞ BƏRPA İŞLƏRİ İLƏ TANIŞ OLUBLAR





əvvəli səh. 1

Məlumat verilib ki, məscid kompleksinin ərazisində Heydər Əliyev Fondunun dəstəyi ilə muzey də yaradılıb. Muzeydə Şəki xanlığı dövrünə aid fərqli eksponatlar, müxtəlif mənbələrdən toplanan maddi-mədəniyyət nümunələri təqdim olunur. Muzey əyani şəkildə Şəki xanlığının yaranmasının, formalaşmasının milli dövlətçilik tariximizdə xüsusi yerini nümayiş etdirir. İki mərtəbədən ibarət olan muzeyin birinci mərtəbəsində Şəki xanlığı dövrünə aid mis qablar, milli geyimlər, zərgərlik məmulatları, XVIII əsr Şəki tacirlərinin evlərini bəzəyən divar güzgüləri, Şəki adət-ənənəsi üzrə onların qarşısına qoyulan mücrülər, Şəkinin kəlağayı sənətinə aid nümunələr sərgilənir. Muzeyin birinci mərtəbəsində təqdim olunan elektron lövhədə Azərbaycan və ingilis dillərində Şəki xanlığının tarixi, siyasi, sosial-iqtisadi həyatı, mədəniyyəti və Şəki xanları barədə məlumatlar çatdırılır. İkinci mərtəbədə isə Şəki xalçası, müxtəlif xalçaçılıq ləvazimatları, Əbdüllətif Əfəndinin "Şəki xanlarının tarixi" kitabı və Şəki xanlığı dövrünə aid yazılı ədəbiyyatlar, şəbəkə nümunəsi, XVIII əsr Şəki xanlarının dövründə istifadə edilmiş sikkələr, XVIII-XIX əsrə aid silah nümunələri nümayiş olunur.

Muzeyin əsas hissələrindən biri ikinci mərtəbədəki xan otağıdır. Həmin otaq Şəki xanı Məhəmmədhüseyn xan Müştağın bu binada ibadət etməsini, ədəbi məclislər təşkil etməsini, müxtəlif qəbullar həyata keçirməsini, şahmat oynamasını əyani şəkildə nümayiş etdirir. Bu hissədə Şəki xanı Məhəmmədhüseyn xan Müştağın təşkil etdiyi ədəbi məclislərdə istifadə olunan ud musiqi aləti, Şəki xanı Məhəmmədhüseyn xanın taxtının tarixi mənbələrdə olan təsvirləri əsasında 2014-2015-ci illərdə hazırlanmış replikası, Şəki Xan Sarayındakı miniatür təsvirlər əsasında hazırlanmış xanın geyimi təqdim olunur. Bununla yanaşı, xan otağını gözəl şahmat oyunu ilə hamını heyran edən Məhəmmədhüseyn xanın şahmat taxtası, onun daima oxuduğu "Qurani-Kərim" bəzəyir. Otaqda XVIII əsrdə istifadə olunmuş Şəki xanlığının bayrağı və Şəki xanı Səlim xanın döyüş bayrağı da nümayiş etdirilir. Xan otağında "Müştaq" təxəllüsü ilə şeirlər yazan və o dövrün məşhur şairləri ilə məktublaşan Məhəmmədhüseyn xanın yazı masası da təqdim olunur.

# BAKIDA "VİCDAN AZADLIĞI VƏ MEDİA" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə dekabr ayının 15-də "Vicdan azadlığı və media" mövzusunda konfrans təşkil olunub.

Konfransda Dövlət Komitəsinin, Azərbaycan Mətbuat Şurasının rəhbərliyi, media təmsilçiləri, eləcə də dini konfessiya və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı açaraq Azərbaycandakı dövlət-din münasibətləri barədə danışıb. Bildirib ki, Konstitusiyamızda ölkənin hansı dinə mənsub olması təsbit olunmayıb. Azərbaycanın seçdiyi dünyəvilik xəttində dinin siyasətdən ayrı tutulması ideyası əsas götürülüb. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət idarəçiliyi, daxili və xarici siyasət kursu Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam edir.

Dövlət Komitəsinin sədri vurğulayıb ki, əgər Sovet İttifaqı dağılarkən ölkəmizdə 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-i ötüb. Fəaliyyət göstərən İslam və qeyri-islam icmaları hər il dövlətdən maliyyə yardımı alır. Bu da bizim multikultural dəyərlərə nə qədər hörmət göstərdiyimizin bariz nümunəsidir. Azərbaycan müsəlman dünyasının bir parçasıdır, respublikamızda dini vəhdət və birliyin təmin olunması və gücləndirilməsi üçün kifayət qədər işlər görülür. Çıxışı zamanı dinin siyasiləşməsinin fəsadlarına toxunan M.Qurbanlı din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideologiyaların yayılmasına qarşı mübarizə tədbirlərinə diqqət çəkib. Bu istiqamətdə medianın üzərinə də böyük vəzifə düşdüyünü, dini sahədə ixtisaslaşdırılmış jurnalistlərin formalaşmasının önəmini qeyd edib. Dövlət Komitəsinin bu məqsədlə mütəmadi olaraq jurnalistlər arasında yazı müsabiqələri təşkil etdiyini, Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə seminar-treninqlər keçirdiyini bildirib. Qeyd edib ki, bəzən xarici mətbuatda Azərbaycanı hansısa məzhəbə bağlamaq istəyirlər. Bu, kökündən yanlışdır. Azərbaycan heç bir məzhəbə aid olmayan dünyəvi və tolerant ölkədir. İslam həmrəyliyi və vəhdətin hökm sürdüyü Azərbaycanda məzhəblərarası qarşıdurma yoxdur, dini sahədə sabit vəziyyət mövcuddur.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, tolerantlığın təbliği və təşviqi ölkənin əmin-amanlığının qorunmasında başlıca həlqəni təşkil edir. Bu gün qloballaşma heç bir halda müxtəlif icmaların dinc, birgəyaşayış normalarına xələl gətirməməlidir. Təəssüf ki, müasir dünyada baş verən bir çox proseslərdə bunun əksini müşahidə edirik. İctimai missiya daşımalı olan media bu müstəvidə bəzən qeyri-iradi, bir çox hallarda isə məqsədli təfriqəçi rol oynayır. Dinin kənar sifarişlər, təsir və s. hallarla siyasi məqsədlər üçün istifadəsi medianı mütərəqqilik simasından çıxarır. Media, ilk növbədə, həssaslıq və peşəkarlıq nümayiş etdirməli, bu mövzuda hansısa xalqın, etnik qrupun və ya icmanın adət-ənənələr toplusunun təqdimatında reallıq və dəyərlərin təbliği son dərəcə önəmli olmalıdır.

Azərbaycan mediasının dövlətin dini azadlıqlarla bağlı, o cümlədən tolerant mühitin formalaşmasına yönələn siyasətinə hər zaman dəstək olduğunu vurğulayan R.Məcid, həmçinin jurnalistlərin dini savadlılığının zəruriliyinə toxunub. Azərbaycan Mətbuat Şurası ilə DQİDK-nın bu istiqamətdə əməkdaşlığının genişləndirilməsinin labüdlüyünü dilə gətirib.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər Cavadlı milli-mənəvi, o cümlədən dini dəyərlərin qorunması və təbliği istiqamətində mətbuatın üzərinə düşən vəzifələr barədə danışıb. Bildirib ki, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Mənəvi dəyərlərin aşılanması prosesinə diqqət yetirilməli, cəmiyyətdəki sağlam mühitə zərərli təsir edən bəzi təbliğat maşınlarının əleyhinə mətbuat nümayəndələri aktivlik nümayiş etdirməlidirlər.

davamı səh. 3

# BAKIDA "PREZİDENT İLHAM ƏLİYEV SİYASƏTİ: DÜNYƏVİLİK VƏ MULTİKULTURAL DƏYƏRLƏR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB






Dekabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Prezident İlham Əliyev siyasəti: dünyəvilik və multikultural dəyərlər" mövzusunda konfrans keçirilib.



Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan DQİDK sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda mövcud olan tolerant, multikultural mühitin, dini-mədəni müxtəlifliyin, dövlət-din modelinin möhkəmləndirilməsi, milli-mədəni irsin və mənəvi-əxlaqi dəyərlərin mühafizəsi, müxtəlif millətlərin və dinlərin nümayəndələri arasında qarşılıqlı etimadın yaradılması istiqamətində görülən işlərdən bəhs edib.

Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycanda din siyasəti müstəqillik illərində daha da təkmilləşərək bu gün yüksək səviyyədə həyata keçirilir. Həm İslam dünyasında, həm də qlobal təşkilatlarda Azərbaycanın dövlət-din modeli nümunə olaraq qəbul olunur və öyrənilir. Ölkəmizdə bütün dini icmalara bərabər imkanlar yaradılıb. Bu, dünyəviliyin təzahürüdür. "Heydər Əliyevin siyasi kursunu zamanın tələbinə uyğun şəkildə,







məharətlə davam etdirən Prezident İlham Əliyevin apardığı siyasət özündə xalqımızın milli maraqlarını əks etdirir. Milli və dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın hüquqlarının qorunması, müxtəlif millətlərin mədəniyyətlərinin və adət-ənənələrinin inkişafına şərait yaradılması vətəndaş həmrəyliyini möhkəmləndirir. Qürur hissi ilə deyə bilərik ki, milli kimliyin və özünüdərkin güclənməsi, multikultural və tolerant dəyərlərin, milli-dini münasibətlərin inkişafı azərbaycançılıq məfkurəsinin yaratdığı əlverişli ideoloji şəraitdən irəli gəlir. Prezident İlham Əliyevin bu sahədə apardığı siyasət etnik və dini mənsubiyyəti, mədəni dəyərləri və adət-ənənələrindən asılı olmayaraq ölkə vətəndaşları tərəfindən dəstəklənir", - deyə Komitə sədri əlavə edib.

Tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşasının Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsi olduğunu vurğulayan M.Qurbanlı Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilərin dağıtdığı dini abidələrin, o cümlədən məscidlərin bərpasına dair görülən işlərdən də danışıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, dini dəyərlərimizin qorunub saxlanmasında Ümummilli Lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Ulu Öndər Heydər Əliyev dini və milli dəyərlərimizin qorunmasında, tolerant və multikultural ənənələrimizin təbliğində əməli fəaliyyəti ilə mühüm rol oynayıb. Əsası Ulu Öndər Heydər tərəfindən qoyulan dövlət-din münasibətlərini bu gün də ölkə Prezidenti cənab İlham Əliyev böyük uzaqgörənlik və uğurla davam etdirir. Bu gün ölkədə yaşayan müxtəlif dinlərin nümayəndələrinə diqqət və qayğının göstərilməsi Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Məhz bu siyasət sayəsində dövlət dini icmalara xüsusi diqqət və qayğı ilə yanaşır, hər il dövlət büdcəsindən dini icmalara yardımlar ayrılır, dini bayram və mərasimlər dövlət səviyyəsində qeyd edilir.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev Prezident İlham Əliyevin dinimizin, ümumilikdə dəyərlər sistemimizin qorunması və inkişafına göstərdiyi xüsusi diqqət və qayğı ilə bağlı məqamlara toxunub.

DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə, Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Roma Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının yepiskopu Vladimir Fekete, Azərbaycan Respublikası Alban-Udi xristian dini icmasının sədri Robert Mobili çıxışlarında tolerant və multikultural ənənələrin hökm sürdüyü ölkəmizdə həyata keçirilən din siyasəti, İslam və qeyri-islam dini icmalara, onların ibadət yerlərinə göstərilən diqqət və qayğıdan, eyni zamanda, Azərbaycanın müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə verdiyi töhfələrdən söhbət açıblar.

# BAKIDA "VİCDAN AZADLIĞI VƏ MEDİA" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

əvvəli səh. 2

Q.Cavadlı bu baxımdan media nümayəndələrinin dini savadlılığının xüsusi önəm daşıdığını deyib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov "İdeoloji təhlükəsizlik, vicdan azadlığı və media" mövzusunda geniş təqdimatla çıxış edərək, dinə yalnız insanları birləşdirən ictimai fikir forması olaraq deyil, həm də vicdan azadlığı, milli, ideoloji, ictimai təhlükəsizlik aspektlərindən baxmağın vacib olduğunu deyib. Bildirib ki, xarici dairələr tərəfindən milli-mənəvi və dini dəyərlərimizə qarşı yad ideoloji təhdidlərin olması istisna deyil. Bu kimi mənfi hallarla mübarizə yollarından söz açan Komitə rəsmisi xalqımıza xas dəyərlərin, ictimai şüurun elementlərinin intensiv təbliğatının aparılması, güclü təşkilatlanma və dayanıqlılığın təmin edilməsinin önəmindən danışıb. Tədbir iştirakçılarını din adı altında ölkəmizə yönəlik təhdidlərə qarşı aparılan ideoloji mübarizə yolları barədə məlumatlandırıb.




Mətbuat Şurasının İdarə Heyətinin üzvləri Yeganə Hacıyeva və Azər Həsrət, "Yeni Müsavat" qəzetinin təsisçisi və rəhbəri Rauf Arifoğlu isə çıxışlarında xarici qüvvələrin dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında media nümayəndələrinin fəaliyyəti, sosial medianın gücünün düzgün dəyərləndirilməsi və sair bu kimi məsələlərə toxunaraq, təkliflərini səsləndiriblər.

Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev mövzu ilə bağlı fikirlərini bölüşüblər. Vurğulanıb ki, Azərbaycanda dini etiqad azadlığı təmin edilir, müxtəlif dini konfessiyalar qarşılıqlı ehtiram şəraitində fəaliyyət göstərirlər. Reallıq bundan ibarətdir ki, ölkəmizdəki dini sabitliyə xaricdən idarə olunan müəyyən təhdidlərə baxmayaraq, Azərbaycan güclü dövlətdir, özünün təhlükəsizliyini, mənafeyini və milli maraqlarını ən yüksək səviyyədə qorumaq iqtidarındadır.

Konfrans çərçivəsində Komitənin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun nəşr etdirdiyi ədəbiyyatlardan ibarət sərgi də nümayiş etdirilib.

Tədbir işini müzakirələrlə yekunlaşdırıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ GƏNCƏDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu keçirilir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həlli ilə bağlı müvafiq tədbirlər görülür.

Dekabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gəncə şəhər Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.



Qəbulda Gəncə, Naftalan şəhər, Goranboy, Samux, Göygöl, Daşkəsən, Kəlbəcər, Xocalı rayon sakinlərinin ərizə, müraciət və təkliflərinə baxılıb.

Qəbuldan əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Vətəndaşların Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri bölgə şöbəsinin məsul şəxsinin iştirakı ilə dinlənilib, ərizələri qəbul edilərək, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ İCLASI KEÇİRİLİB









Dekabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Kollegiyasının 2023-cü ildə qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.



Komitə sədri Mübariz Qurbanlı iclası giriş sözü ilə açaraq bildirib ki, 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edilməsi Ulu Öndərin Azərbaycan xalqı, dövlətçiliyimiz, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Bu gün Azərbaycan əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan möhkəm təməllər üzərində inkişaf edir. Prezident İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyasını uğurla həyata keçirməsi nəticəsində Azərbaycan güclü, müasir, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilib.

Ötən il Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) öz fəaliyyətini dövlət-din münasibətləri ilə bağlı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətə müvafiq olaraq qurub və Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulmuş məqsədlərə nail olmaq istiqamətində fəaliyyət göstərib. Komitə tabeliyində olan Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondu ilə birgə ilin əvvəlində müəyyən edilmiş Tədbirlər Planına uyğun olaraq işlərini davam etdirib.

M.Qurbanlı qeyd edib ki, 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin daha dərindən araşdırılması, Ulu Öndərin zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradacaq. Bu baxımdan "Heydər Əliyev İli" DQİDK və tabeliyində olan qurumların üzərinə də vəzifələr qoyur. 2023-cü ilin Tədbirlər Planında dini maarifləndirmə sahəsində geniş istiqamətlərin nəzərdə tutulduğu bildirilib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayevin 2023-cü ildə nəzərdə tutulan tədbirlər barədə məruzəsi dinlənilib. V.Babayev bildirib ki, növbəti ildə dini təyinatlı ədəbiyyatların, əşyaların, dini məzmunlu başqa məlumat materiallarının muxtar respublika ərazisində yayılmasına nəzarətin həyata keçirilməsi diqqətdə saxlanılacaq.

Eyni zamanda, Agentlik Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura ilə birlikdə dinin düzgün təbliğinə xüsusi diqqət yetirilməsi, din xadimlərinin biliklərinin artırılması istiqamətində fəaliyyətini davam etdirəcək, bundan başqa, dini təhsil almağa meyilli olan sakinlər üçün rayon məscidlərində qadın və kişilərdən ibarət təkmilləşdirmə kurslarının fəaliyyəti gələcəkdə də davam edəcək. Həmçinin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar görüləcək işlərlə bağlı Agentliyin Tədbirlər Planı hazırlanıb.

Dövlət Komitəsinin 2023-cü ildə nəzərdə tutduğu tədbirlər barədə məlumatı DQİDK sədrinin müavini Gündüz İsmayılov iclas iştirakçılarının diqqətinə çatdırıb. G.İsmayılov Dövlət Komitəsi tərəfindən 2023-cü ildə görüləcək işlər barədə danışaraq qeyd edib ki, ölkənin bütün bölgələrini əhatə edəcək maarifləndirmə tədbirlərində dini fanatizm, radikalizm, ekstremizmə qarşı mübarizə, həmçinin, multikulturalizm, tolerantlıq, sülh şəraitində birgəyaşayış, vətəndaşların hüquq bərabərliyi, ümumbəşəri dəyərlərə hörmət istiqamətlərində konfrans, seminar-treninqlərin təşkili nəzərdə tutulur. Komitə rəsmisinin məruzəsindən sonra gələcək hədəflər, problem və perspektivlər geniş müzakirə edilib.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə 2022-ci ildə müsahibədən keçən və təyinat alan din xadimlərinin fəaliyyəti barədə məruzə ilə çıxış edərək bildirib ki, Dövlət Komitəsi tərəfindən 25 oktyabr 2022-ci ildə İslam dininə aid ibadət yerlərinə (məscidlər) din xadimlərinin təyin olunması məqsədilə elan edilən müsahibədə ilk dəfə olaraq, qadın dini ayinlərin icraçısı vəzifəsi üzrə vakant yerlər müsahibəyə çıxarılıb. Belə ki, müsahibəyə çıxarılmış 44 vakant vəzifədən 7-si qadın dini ayinlərin icraçısı vəzifəsi olub. 25 noyabr 2022-ci il tarixində başa çatmış sənəd qəbulunun statistikasına əsasən İslam dininə aid ibadət yerləri (məscidlər) üzrə 44 vakant vəzifəyə 253 namizəd sənəd verib. Komitə rəsmisi bildirib ki, hazırda Dövlət Komitəsində 25 oktyabr 2022-ci ildə elan edilmiş müsahibənin imtahan mərhələsinə hazırlıqlar davam edir.

Daha sonra çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rektoru Aqil Şirinov Aİİ-nin 2023-cü ildə fəaliyyət planı barədə məlumat verib. Rektor qeyd edib ki, 2023-cü il "Heydər Əliyev İli" çərçivəsində ilboyu elmi konfranslar, seminarlar, "dəyirmi masa", təlimlər, esse yarışmaları, intellektual müsabiqələrin keçirilməsi nəzərdə tutulub. İnstituta yüksək intellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə regionlarda maarifləndirici səfərlərin və görüşlərin təşkili, o cümlədən ali təhsil müəssisəsinin sosial şəbəkələrdə bu istiqamətdə reklam işinin aparılması həyata keçiriləcək.

Eyni zamanda, Aİİ yeni fəaliyyətə başlamış "İlahiyyat TV" "Youtube" kanalı üçün İslam və digər elmləri özündə ehtiva edəcək proqramlarla dini maarifləndirmə istiqamətində doğru və düzgün məlumatların verilməsi, sosial-psixoloji və aktual problemləri özündə cəmləyən verilişlərin hazırlanması və yayımlanmasını nəzərdə tutub. Bundan başqa, xarici ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində "Erasmus+" və "Mövlanə" tələbə mübadilə proqramlarının həyata keçirilməsi, tələbələrin dünyagörüşünün artırılması və maarifləndirilməsi, onların mütaliə vərdişlərinin və nitq qabiliyyətlərinin formalaşdırılması, həmçinin gənclərə yüksək mənəvi keyfiyyətlər və vətənpərvərlik duyğularının aşılanması məqsədilə intellektual yarışların təşkili planlaşdırılıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun 2023-cü ildə görüləcək işlərinə dair məlumatla isə Fondun icraçı direktoru Mehman İsmayılov çıxış edərək bildirib ki, Fond dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, mənəvi dəyərlərin qorunması və təbliği, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanması və həyata keçirilməsi, dini qurumların, vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətini davam etdirəcək. Növbəti ildə xüsusilə "Heydər Əliyev İli" ilə bağlı tədbirlərin, müsabiqələrin, konfrans və seminarların keçirilməsi prioritet istiqamətlərdən biri olacaq.

Dövlət Komitəsinin Aparat rəhbəri Amil Cavadov etik davranış qaydalarına dair görülən işlər barədə məlumat verərək bildirib ki, Dövlət Komitəsində dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, etik davranış qaydalarına riayət edilməsi, sənədlərlə işin təşkili, elektron sənəd dövriyyəsi ilə bağlı proseslərə keçid, eyni zamanda dövlət qulluqçularının reyestrinin aparılması istiqamətində məqsədyönlü işlər həyata keçirilir. A.Cavadov 2023-cü ildə keçirilməsi məqsəduyğun sayılan təlimlərin əsas istiqamətlərini də kollegiya iştirakçılarının diqqətinə çatdırıb.

Sonda Aparat rəhbəri Amil Cavadov tərəfindən Kollegiyanın qərar layihəsi səsləndirilib və müzakirələrdən sonra qəbul edilib.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİ ZİYARƏT OLUNUB





*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi dekabrın 12-də Fəxri xiyabana gələrək, müasir Azərbaycanın memarı, dövlətçiliyin xilaskarı Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, abidəsinin önünə gül dəstələri qoyaraq xatirəsini dərin ehtiramla yad ediblər.*

# "DÜNYƏVİ DÖVLƏTDƏ DİNİN YERİ VƏ ROLU"



Dekabrın 8-9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Oğuz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə dinin yeri və rolu" mövzusunda ikigünlük konfrans keçirilib.

Dini icma sədrləri, din xadimləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə açan Oğuz RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Ayaz Ağayev rayondakı dini durum barədə ətraflı məlumat verib, dövlətin dindarlara diqqət və qayğısından bəhs edib.




Azərbaycanın dünyəvi dövlət olmaqla yanaşı, öz dini və milli-mənəvi dəyərlərinə söykənən ölkə olduğunu vurğulayan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyevin siyasətini layiqincə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev cəmiyyətimizdə milli və dini dəyərlərin möhkəmləndirilməsinə xüsusi diqqət və qayğı ilə yanaşır. Azərbaycandakı müxtəlif dövrlərə və mədəniyyətlərə, o cümlədən, İslam mədəniyyətinə məxsus tarixi-dini abidələrin, mənəvi irsimizin dövlət səviyyəsində qorunduğunu bildirən S.Salahlı vurğulayıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun işğaldan azad edilmiş ərazilərdə dini abidələrin, məscidlərin bərpası üçün gördüyü işlər ölkə rəhbərliyinin dinimizə diqqət və qayğısının bariz nümunəsidir.

Dövlət Komitəsi sədrinin birinci müavini onu da bildirib ki, xalqımız özünün ali dəyərlərinə bağlılığını qoruyub saxlayıb, eləcə də başqa dinlərin və etnik qrupların nümayəndələri ilə dostluq və mehribanlıq şəraitində yaşayırlar.

"Hər bir vətəndaşın vicdan azadlığı və dini ayinləri sərbəst yerinə yetirməsi qanunvericiliklə müəyyən edilib. Dövlətin dini məsələlərə, eləcə də ayrı-ayrı dini icmalara olan diqqətinin göstəricisi olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, komitənin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, həmçinin Azərbaycan İlahiyyat İnstitutu fəaliyyət göstərir", - deyə S.Salahlı əlavə edib.

***

Analoji tədbir dekabrın 15-də Şamaxıda DQİDK və Şamaxı RİH-in birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Şamaxı RİH başçısının birinci müavini Hikmət Şikarov, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Elnur Mehdiyev, Şamaxı RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Rəşad Əliyev, Cümə məscidinin imamı - QMİ-nin bölgə qazısı Mərəhmət Mustafayev, dini icma üzvləri, din xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

RİH başçısının birinci müavini Hikmət Şikarov tədbiri giriş sözü ilə açaraq son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Şamaxıda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində işlərin görüldüyünü diqqətə çatdırıb. O bildirib ki, Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanda ictimai-siyasi və dini durum sabitdir.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində həyata keçirdiyi siyasi kursun Azərbaycan Prezidenti İlham Əliyev



tərəfindən uğurla davam etdirilməsinin ölkəmizi dünyada dinlərarası dialoqun və tolerant dəyərlərin mövcud olduğu məkan kimi tanıtmasından danışaraq bildirib ki, müasir dövrün çağırışları Azərbaycanda dinlə bağlı dövlət siyasətində yeni prioritetlər və hədəflər müəyyənləşdirir.

Səyyad Salahlı qeyd edib ki, dövlətin əsas vəzifəsi daxili, xarici təhlükəsizliyi təmin etmək, vətəndaşların haqq və azadlıqlarına əngəl olan problemləri aradan qaldırmaqdır. Bu səbəbdən də, dövlət bu gün ölkənin gələcəyi üçün lazım olan tədbirləri görməkdədir. Yəni,



dövlət vətəndaşlarını və cəmiyyəti zərərli, fanatik və radikal dini-siyasi qrup və təşkilatlardan qoruyur. Bu istiqamətdə dövlətin sekulyar dəyərləri və prinsipləri daha kəskin, eləcə də aydın qoyulur.

Qeyd edək ki, eyni mövzuda daha bir tədbir dekabrın 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında keçirilib.

Tədbirlərdə Dövlət Komitəsinin sifarişi ilə ərsəyə gətirilən "Şuşa 270 il" adlı sənədli filmi nümayiş olunub və iştirakçıların sualları cavablandırılıb.

# "VƏTƏNPƏRVƏRLİK: MİLLİ-MƏNƏVİ DƏYƏR KİMİ"




Dekabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bakıda "Vətənpərvərlik: milli-mənəvi dəyər kimi" mövzusunda konfrans keçirilib.

Ziyalılar, din xadimləri və gənclərin iştirak etdikləri tədbirdə çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı hər bir azərbaycanlının qəlbində Vətən sevgisi olduğunu diqqətə çatdıraraq bildirib ki, xalqımız hər zaman öz keçmişinə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə bağlı olub. Birinci Qarabağ müharibəsi və Vətən müharibəsindən danışan S.Salahlı deyib ki, döyüşlərdə Azərbaycan oğullarının göstərdikləri şücaət və qəhrəmanlıq xalqımızın, xüsusilə gənclərimizin vətənpərvərliyinin bariz nümunəsidir: "Ali Baş Komandan, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə qazandığımız Zəfər bizi dünyaya bir daha torpağına, Vətəninə bağlı, qəhrəman millət kimi tanıtdı. Hər bir soydaşımız qürur hissi keçirir ki, üçrəngli bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda dalğalanır".

Vətən müharibəsindəki qələbəmizdə xalqımızın milli-mənəvi dəyərlərinin roluna toxunan S.Salahlı bildirib ki, 44 günlük müharibədə birlik və həmrəylik nümayiş etdirərək "Dəmir yumruq" kimi birləşən müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan oğulları çiyin-çiyinə, qətiyyətlə və vətənpərvərliklə döyüşərək işğala son qoyublar.

Daha sonra çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev vurğulayıb ki, bu gün Şuşada üçrəngli bayrağımızın dalğalanması ilə yanaşı, azan səsi də eşidilir. "Vətənpərvərlik duyğusu gələcəyimizin təminatıdır" - deyən C.Əliyev bildirib ki, şanlı Ordumuzun əldə etdiyi qələbə sayəsində azad olunan torpaqlarda dini ibadət yerlərinin tikintisi və əsaslı təmiri ölkə rəhbərliyinin milli-mənəvi, o cümlədən dini dəyərlərimizə həssas münasibətinin göstəricisidir.




Bu cür tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirən Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Ulduz" jurnalının şöbə müdiri, şair Dayandur Sevgin və başqaları vurğulayıblar ki, hər bir xalqın mövcudluğunun əsas göstəricisi onun milli-mənəvi dəyərləridir və bu dəyərlər bizim tariximiz, ədəbiyyatımız, incəsənətimiz, dilimiz, adət-ənənəmizdir. Milli-mənəvi dəyərlər xalq yaradıcılığında, ədəbiyyatda təşəkkül tapıb inkişaf etdirilən və nəsildən-nəslə ötürülərək bu günümüzün mədəni tərəqqisində əhəmiyyət daşıyan keyfiyyətlərdəndir.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Vətən naminə" sənədli filmi nümayiş olunub.



# DQİDK ELM VƏ TƏHSİL NAZİRLİYİ İLƏ BİRGƏ ÜÇGÜNLÜK SEMİNAR-TRENİNQ TƏŞKİL EDİB

Dekabr ayının 14-16-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda üçgünlük seminar-treninq baş tutub.

Seminar-treninqdə Həyat bilgisi, tarix, Azərbaycan dili və ədəbiyyat fənlərinin tədris proqramlarındakı milli-mənəvi dəyərlərimiz, həmçinin dinlər, xüsusilə İslamla bağlı mövzuların şagirdlərə düzgün izah edilməsi, bu mövzularda mümkün sualların cavablandırılması istiqamətində tövsiyələr müəllimlərin diqqətinə çatdırılıb. Eyni zamanda, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi üçün onlarla işin qurulması istiqamətləri, xüsusilə yuxarı sinif şagirdləri arasında bu dəyərlərin təbliğ olunması metodları, dinə aid mövzuların şagirdlərə çatdırılması üsulları və bu kimi digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Aqil Şirinov, DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova, ETN-nin şöbə müdiri Vəfa Yaqublunun iştirakı ilə keçirilən tədbirdə AİI-nin İlahiyyat fakültəsinin dekanı, i.f.d., dos. Elnurə Əzizova "Həyat bilgisi fənninin gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsində rolu", İlahiyyat fakültəsinin dekan müavini, s.f.d., dos. Asəf Qənbərov "Dünyada din təhsili modelləri və Azərbaycan nümunəsi", İslamşünaslıq kafedrasının müəllimi, t.f.d., dos. Rəşad Mustafa "Tarix fənninin gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsində rolu" mövzusunda təqdimatlarla çıxış ediblər.

Seminar-treninq çərçivəsində iştirakçılar Azərbaycan İlahiyyat İnstitutundakı tədris prosesi, tələbələr üçün yaradılan şəraitlə yaxından tanış olublar. Müəllimlərin sualları cavablandırılıb, məsələ ilə bağlı təklifləri dinlənilib.

Qeyd edək ki, üçgünlük seminar-treninq Bakının Nəsimi, Yasamal, Səbail rayonlarındakı məktəblərin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, Həyat bilgisi, tarix, Azərbaycan dili və ədəbiyyat fənlərini tədris edən müəllimlər olmaqla, ümumilikdə 600 nəfər təhsil işçisini əhatə edib.



# DQİDK-NIN ŞÖBƏ MÜDİRİ: "TOLERANTLIĞIN AZƏRBAYCAN XALQININ XARAKTERİK XÜSUSİYYƏTİ OLMASI DANILMAZ FAKTDIR"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimovanın "525-ci qəzet"in saytında "Zamana boyun əyməyən köklü ənənələr: Azərbaycanda tolerantlıq mühitinin keçmişinə və indisinə bir baxış" adlı silsilə açıqlamaları yayımlanıb. E.Kərimova açıqlamalarında tolerantlığın ölkəmizdə təşəkkül tarixi, Azərbaycanda multikulturalizm və dini, etnik zəmində tolerantlıq ənənələrindən bəhs edib. Eyni zamanda, ölkəmizə qarşı işğalçılıq siyasəti aparan təcavüzkar Ermənistanın zəbt etdiyi ərazilərdə xalqımızın min illər ərzində qurub yaratdığı tarixi-mədəni abidələri yerlə-yeksan etməsi, Azərbaycan xalqının tarixində böyük bir mərhələni təşkil edən alban abidələrini saxtalaşdıraraq qriqoryanlaşdırması barədə məqamlara toxunub.

# GƏNCƏDƏ "BÖYÜK QAYIDIŞ: DİNİ, MƏNƏVİ VƏ MULTİKULTURAL ASPEKTLƏR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Dekabrın 2-də Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Dövlət Təhlükəsizliyi Xidməti və Gəncə Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Böyük qayıdış: dini, mənəvi və multikultural aspektlər" mövzusunda konfrans keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərindəki abidəsi ziyarət edilib, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Tədbirdə ziyalılar, dini icma üzvləri, din xadimləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Çıxış edən DQİDK sədrinin müavini Sahib Nağıyev qeyd edib ki, "Böyük Qayıdış" – öz mahiyyəti etibarilə Azərbaycan üçün həm regional, həm də beynəlxalq hadisədir. Bu proqram Qarabağa yenidən dönüş, 30 il işğal altında qalmış və Ermənistan tərəfindən vəhşicəsinə dağıdılaraq xarabalıqlara çevrilmiş ərazilərdə yeni həyatın bərqərar edilməsi, adları özünə qaytarılmış çoxsaylı kəndlər və şəhərlər, yollar, körpülər, müasir tikililər, məhv edilmiş qədim mədəniyyətin oyanışı, müxtəlif təyinatlı tarixi abidələrin bərpası, yenidən qurulması deməkdir. "Böyük Qayıdış" proqramının dini-mənəvi tərəflərini xüsusilə vurğulayan sədr müavini bildirib ki,



Ermənistanın uzun müddət işğal altında saxladığı Qarabağ bölgəsində sosial strukturlarla yanaşı, müsəlman və xristian dini abidələrini dağıtması, saxtalaşdırması, o cümlədən tarixi-mədəni irsi yerlə yeksan etməsi faktları bütün dünyaya bəllidir. Vurğulanıb ki, 60-dan çox məscid, 200-ə yaxın ziyarətgah dağıdılıb və yarımuçuq məscidlərdə heyvan saxlanılmaqla dini dəyərlərimiz təhqir olunub, 900-dən çox qəbiristan tamamilə dağıdılaraq qəbirüstü abidələr talan edilib. Erməni işğalçıları tərəfindən Qafqazın mədəniyyət beşiyi hesab olunan Qarabağdakı mədəni, tarixi və dini abidələrin dağıdılması İŞİD-in Suriyanın qədim şəhəri Palmira və İraqın Nimrud şəhərində törətdiyi dağıntılar ilə müqayisə edilə bilər. Hazırda Qarabağda həyata keçirilən yenidənqurma işlərinə də toxunan Komitə rəsmisi cənab Prezident İlham Əliyev tərəfindən bu məsələnin daim diqqət mərkəzində saxlanıldığını, dövlət strukturları ilə yanaşı, uzun illərdir Azərbaycanın tarixi-mədəni abidələrinin qorunmasında mühüm rolu olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da bərpa-quruculuq işlərində yaxından iştirak etdiyini diqqətə çatdırıb.

Baş Prokurorluğun idarə rəisinin müavini, ədliyyə müşaviri Asim Yusifov, Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev çıxışlarında cənab Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın əhəmiyyətinə toxunublar. Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə səlahiyyətli nümayəndəsi, qazı Tahir Abbasov din xadimlərinə yaradılan şərait, məscidlərin təmir və tikintisinə görə məmnunluğunu ifadə edib.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# MASALLIDA "KÜTLƏVİ DİNİ MƏRASİMLƏR, İCTİMAİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI" MÖVZUSU MÜZAKİRƏ EDİLİB

Dekabrın 9-da Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Dövlət Təhlükəsizliyi Xidməti və Masallı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Kütləvi dini mərasimlər, ictimai təhlükəsizliyin təmin olunması" mövzusunda konfrans keçirilib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin Masallı rayonundakı abidəsi ziyarət edilib, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Konfransda təşkilatçı qurumların rəsmi şəxsləri, rayon ictimaiyyətinin nümayəndələri, dini icma üzvləri və din xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Masallı RİH başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aybəniz Qafarova mövzunun aktuallığından bəhs edib.

Çıxış edən DQİDK sədrinin müavini Sahib Nağıyev insanların əsrlərboyu inanc və mədəniyyətlərinin təzahürü olan dini mərasimlərdən, onların



etnik, dini köklərindən, tarixən formalaşma və şəkildəyişmə mərhələlərindən bəhs edib. Bildirib ki, dini mərasimlər zamanı insanlar bəzən həddən artıq ifrata varır ki, bu adətən məlumatsızlıq, xüsusilə, dini savadsızlıqdan irəli gəlir. Dini mərasimlərin, kütləvi ayinlərin dini-siyasi məqsədlər üçün istifadə edilməsi halları da dünya praktikasında mövcuddur. Azərbaycanda dövlət-din münasibətlərinin dünyəvi prinsiplər əsasında qurulmasından bəhs edən sədr müavini dini mənsubiyyətindən asılı olmayaraq ayinlərin, mərasimlərin icrasında hər kəs üçün azad və bərabər şəraitin yaradıldığını diqqətə çatdırıb. Qeyd edib ki, bu tip mərasimlərin keçirilməsi zamanı hüquqi qaydalara, ictimai normalara riayət olunmalıdır. Ona görə də dini mərasimlər ictimai asayişi pozmadan, kimisə iştiraka məcbur etmədən yerinə yetirilməlidir. S.Nağıyev onu da vurğulayıb ki, dini mərasimlər keçirilərkən ifrat hərəkətlərə və xurafata yol verilməməlidir.

Baş Prokurorluğun idarə rəisinin müavini, ədliyyə müşaviri Asim Yusifov, Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev dini mərasimlərin icrası zamanı baş verən neqativ təzahürlər və mənfi halların inzibati yollarla deyil, daha çox müntəzəm maarifləndirmə tədbirlərinin həyata keçirilməsi ilə aradan qaldırılmasının məqsədəuyğun olmasından bəhs ediblər.

Tədbir müzakirələrlə yekunlaşıb.

# ŞƏKİDƏ "MULTİKULTURAL CƏMİYYƏTDƏ MƏZHƏBÇİLİK VƏ DİNİ TƏƏSSÜBKEŞLİK MEYİLLƏRİNİN YARATDIĞI PROBLEMLƏR" MÖVZUSUNDA KONFRANS OLUB

Dekabrın 16-da Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Dövlət Təhlükəsizliyi Xidməti və Şəki Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda konfrans keçirilib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsi ziyarət edilib, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Konfransda təşkilatçı qurumların rəsmi şəxsləri, rayon ictimaiyyətinin nümayəndələri, dini icma üzvləri və din xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Şəki ŞİH başçısının birinci müavini Həsən Həsənov mövzunun aktuallığından bəhs edib.

Çıxış edən DQİDK sədrinin müavini Sahib Nağıyev Azərbaycanda bütün millətlərin mehriban və bir-birinin adət-ənənələrinə hörmət ruhunda yaşamasının həm tarixən, həm də bu gün malik olduğumuz ən böyük milli-mənəvi dəyərlərdən biri olduğunu bildirib. Qeyd edib ki, bu dəyər həm də ölkəmizin inkişafının



və ictimai-siyasi sabitliyinin mühüm şərtlərindəndir. Məhz bu səbəbdən Azərbaycan xalqının sahib olduğu multikultural dəyərləri və tolerantlıq ənənələrini qorumalı və gələcək nəsillərə ötürmək üçün əlimizdən gələni etməliyik.

S.Nağıyev vurğulayıb ki, son illərdə ölkəmizdə xarici radikal dini mərkəzlərin ideoloji-psixoloji əsarətinə çevrilmiş, məzhəbçiliyi və dini təəssübkeşliyi təbliğ edən azsaylı qruplaşmalar meydana gəlib ki, onlar əsasən din altında başqa ölkələrin dövlət siyasətlərini, mədəniyyətlərini təbliğ edir, əsarətlərinə çevrilmiş insanları öz cəmiyyətlərinə qarşı qoyur, beləliklə, mövcud sabitliyi, asayişi pozmaqla dövlətin daxildən zəifləməsinə şərait yaradırlar. Əlavə edib ki, məzhəbçilik və dini təəssübkeşlik meyilləri dini radikalizm və xurafatdan heç də az təhlükə daşımır. Bu kimi mənfi halların baş verməsinə səbəb dini savadlılığın yetərli olmamasıdır. Sədr müavini bildirib ki, sosial şəbəkələrdə məzhəblərarası və konfessiyalararası münasibətlərə zərbə vuracaq, təhrikedici materialların sayının gündən-günə artması səbəbindən sözügedən risklərdən qorunmaq üçün məktəblilərin, yeniyetmələrin sosial şəbəkələrdən istifadəsinə ciddi nəzarət olunmalıdır.

Baş Prokurorluğun nümayəndəsi Ramil Ədilov, Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev, Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndəsi çıxış edərək, məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər və həlli yollarından bəhs ediblər.

QMİ-nin bölgə qazısı Kamran Məmmədov isə çıxışında dinə dövlət qayğısının əhəmiyyətinə toxunub.

Tədbir müzakirələrlə yekunlaşıb.

# BRÜSSELDƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN QLOBAL TƏHLÜKƏSİZLİKDƏ ROLU MÜZAKİRƏ OLUNUB



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşəbbüsü, "New Direction" Avropa İslahatlar Fondu, Avropada Din Azadlığı və Təhlükəsizlik İnstitutu və Avropa İslahatı üzrə Yeni İstiqamət Fondunun birgə təşkilatçılığı ilə Belçikanın paytaxtı Brüssel şəhərində "Təhlükəsiz dünya naminə dinlər və mədəniyyətlərarası dialoqun təşviqi" mövzusunda konfrans keçirilib. Konfrans təməli Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulmuş "Bakı Prosesi"ni davam etdirərək, dinlər və mədəniyyətlər arasında dialoqun inkişafına təkan vermək məqsədi daşıyır.

Avropada dözümsüzlüyün artması, dindən siyasi məqsədlər üçün sui-istifadə, ksenofobiya, antisemitizm və islamofobiya kimi günümüzün qlobal çağırışları sülh, təhlükəsizlik və sosial birliyə ciddi təhlükə yaradır. Belə çağırışlar mədəni müxtəlifliyi, dinlər və sivilizasiyalar arası dialoqu, müxtəlif dinlər arasında qarşılıqlı anlaşmanı, eləcə də tolerantlığı gücləndirməyi təşviq etmək məqsədilə dinlər və mədəniyyətlər arasında möhkəm dialoqun qurulması üçün beynəlxalq səviyyədə səylərin birləşdirilməsi və gücləndirilməsi həmişəkindən daha çox tələb olunur.

Konfransda azərbaycanlı və avropalı ekspertlər bir araya gələrək günümüzün belə vacib çağırışlarına birgə cavabları müzakirə ediblər.

Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov, ölkəmizin Belçikadakı səfiri Vaqif Sadıqov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov çıxış edərək, Azərbaycanın multikulturalizm modelindən danışıb, ölkəmizin dinlər və mədəniyyətlərarası harmoniya, birgəyaşayış tərzi ilə bağlı təcrübəsini bölüşüblər.

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin salamları konfrans iştirakçılarına çatdırılıb.

Konfrans çərçivəsində keçirilən "Bugünkü dünyada dinin rolu", "Dinlərarası harmoniya davamlı inkişafın mühüm elementi kimi" və "Dinlərarası dialoq sülhə necə töhfə verə bilər" mövzularında panel iclaslarında bu gün dünyanın, xüsusilə də Avropada antisemitizm, antimüsəlman və digər dini dözümsüzlük və nifrət zəminində cinayətlərlə mübarizəsi məsələləri müzakirə olunub. Avropanın müxtəlif ölkələrindən konfransa qoşulmuş mütəxəssislər multikulturalizm sahəsində Azərbaycan modelini yüksək qiymətləndirib, bunun hər bir ölkə üçün örnək olduğunu vurğulayıblar.

Çıxış edənlər Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü olan "Bakı Prosesi"nin əhəmiyyətini vurğulayaraq, onun hər bir ölkədə reallaşdırılmasının vacibliyini qeyd ediblər. Azərbaycan Prezidentinin hələ 2008-ci ildə bugünkü çağırışları aydın gördüyü və onların qarşısının vaxtına alınması üçün çağırış etdiyi bildirilib.

Azərbaycana səfər etmiş din xadimləri ölkəmizdə rastlaşdıqları birgəyaşayış modelindən danışıblar. Bu gün multikulturalizmin Azərbaycan modelini tətbiq etməklə dünyanı bürüyən antisemitizm, antimüsəlman, islamofobiya, ksenofobiya ilə birgə mübarizə aparmağın əhəmiyyəti qeyd olunub. Eyni zamanda, dinlərarası harmoniyanın ən vacib məsələ olduğu diqqətə çatdırılıb.

Qeyd edilib ki, ayrı-seçkilik halları bir çox cəmiyyətlər üçün problem olaraq qalır və bəzən nifrət nitqindən silahlı münaqişəyə qədər zorakı formalarla ifadə olunur. Bu kontekstdə dinlər və mədəniyyətlərarası dialoq qarşılıqlı qərəzlərə qarşı çıxmaq, onları aradan qaldırmaq üçün mühüm yanaşmadır.

Diqqətə çatdırılıb ki, dinə və ya inanca görə dözümsüzlüyün və ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasının, sülh və qeyri-zorakı mədəniyyətin təbliğinin vacibliyi qlobal səviyyədə qəbul edilib, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının müvafiq qətnamələrində öz əksini tapıb.



Vurğulanıb ki, Azərbaycan multikulturalizmin sadiq müdafiəçisidir və bu dəyərlərin fəal şəkildə təbliği istiqamətində mühüm səylər göstərir. Multikulturalizm Azərbaycanda əsrlər boyu qorunub saxlanılan həyat tərzi olmaqla yanaşı, dövlət siyasətinin mühüm tərkib hissəsidir.

İştirakçılara məlumat verilib ki, Azərbaycanda dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dini Liderlərin Ümumdünya Sammiti, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu kimi bir çox beynəlxalq tədbirlər keçirilib.

Bu konfrans multikulturalizm sahəsində əməkdaşlığın gücləndirilməsi, dinlərarası dialoq perspektivlərinə baxışın paylaşılması, eləcə də təcrübə mübadiləsi üçün əlverişli şərait yaradıb.

Konfransın keçirildiyi binanın foyesində təşkil edilən sərgi konfrans iştirakçılarına multikulturalizmin, dinlərarası harmoniyanın Azərbaycan modeli ilə tanış olmaq imkanı verib. Ölkəmizdə məscid, sinaqoq və kilsələrin fəaliyyət göstərməsi yüksək qiymətləndirilib.

# SƏYAVUŞ HEYDƏROV: "BAKI PROSESİ" BÖHRANDAN ÇIXIŞ ÜÇÜN YOL XƏRİTƏSİ KİMİ QİYMƏTLƏNDİRİLİR



Müasir dövrdə dünyada cərəyan edən ictimai-siyasi proseslərdə gərginliyin artım dinamikası fonunda dinlərarası əməkdaşlıq və dialoqun aktuallığı göz önündədir. Bu gün dinin sürətlə siyasiləşdirilməsi, siyasi alətə çevrilməsi reallıqdır. Bunun acı nəticələri də aydın görünür. Dini zəmində bir sıra münaqişələrə, eləcə də Suriyadakı böhrana nəzər salsaq görərik ki, vaxtında qabaqlayıcı tədbirlər görülsəydi, dinlər və mədəniyyətlərarası dialoqa önəm verilsəydi, ümumiyyətlə, dini təhlükəsizlik məsələlərinə diqqət yetirilsəydi, bu gün vəziyyət başqa cür olardı.

Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov AZƏRTAC-a müsahibəsində deyib.

Komitə sədrinin müavini bildirib ki, dinin siyasiləşdirildiyi bugünkü dövrdə mənəvi böhranın mövcudluğu aydın görünür. Bu gün bəzi ekspertlər sivilizasiyaların böhran dövrünə qədəm qoyduğunu deyirlər. Bunun nəticələri isə müxtəlif lokal münaqişələr formatında özünü göstərir.

"Brüsseldəki konfrans vasitəsilə dini motivli proseslərin nə dərəcədə təhlükəli olduğunu beynəlxalq ictimaiyyətə çatdırdıq. Azərbaycanın bu istiqamətdə təşəbbüslərinə reaksiya verildiyinin şahidi olduq. Eyni zamanda, Avropanın narahatlığını gördük. Konfrans iştirakçıları Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı təşəbbüsünü alqışlayaraq onun böyük əhəmiyyətini qeyd etdilər. Onlar nəzəriyyədən praktikaya keçməyin vaxtı çatdığını qeyd etdilər. Bu sahədə Azərbaycan nümunəsinə, modelinə diqqət çəkildi. Bir daha gördük ki, Azərbaycan nümunəsinə böyük önəm verilir", - deyə S.Heydərov bildirib.

Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüskarı olduğu "Bakı Prosesi" Brüssel konfransının əsas mehvəri oldu. Ekspertlər "Bakı Prosesi"ni böhrandan çıxış üçün yol xəritəsi kimi qiymətləndirdilər.

# ABŞ-NİN NÜFUZLU YƏHUDİ JURNALINDA AZƏRBAYCANIN TOLERANT MÜHİTİNDƏN BƏHS OLUNUB

Azərbaycan Gürcü yəhudiləri dini icmasının sədri ravvin Zamir İsayevin ABŞ-nin nüfuzlu yəhudi jurnalı olan "Ami" dərgisində müsahibəsi dərc olunub.

Zamir İsayev müsahibəsində Azərbaycanın İsraildə açılacaq səfirliyinin iki xalq və dövlət arasındakı dostluq, qardaşlıq və əməkdaşlığa verəcəyi töhfələr, həmçinin Azərbaycanın multikultural dəyərləri haqqında geniş məlumat verib. Bildirib ki, Respublikamızda dövlət tərəfindən bütün dinlərə məxsus tarixi-dini, eləcə də mədəni abidələrə qayğı və diqqətlə yanaşılır. Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq hamı, o cümlədən yəhudilər sülh, qardaşlıq və həmrəylik şəraitində yaşayırlar.

Müsahibəsində Azərbaycanda mövcud olan dövlət-din münasibətlərini, tolerantlıq ənənələrini, yəhudi icmasına verilən dəyəri xüsusi vurğulayan Z.İsayev bunun bütün dünya üçün nümunə ola biləcəyini bildirib.



# “İLHAM ƏLİYEV SİYASƏTİ: DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI HARMONİYA” MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Dekabrın 23-də Azərbaycan Bibliya Cəmiyyəti xristian dini icması İdarə Heyətinin təşəbbüsü ilə “İlham Əliyev siyasəti: dinlər və mədəniyyətlərarası harmoniya” mövzusunda tədbir keçirilib.

İslam və qeyri-islam dini konfessiyalarının da iştirak etdiyi tədbiri giriş sözü ilə açan Azərbaycan Bibliya Cəmiyyəti xristian dini icmasının sədri Rasim Xəlilov Prezident İlham Əliyevin dini konfessiyalara diqqət və qayğısından bəhs edib. “Ölkəmizin multikultural ənənələri dünya ölkələri üçün nümunədir” - deyən R.Xəlilov Azərbaycanda müxtəlif dini ayinləri icra etmək üçün hər kəsə bərabər şərait yaradıldığını diqqətə çatdırıb. Natiq təmsil etdiyi dini icmanın il ərzindəki fəaliyyəti barədə ətraflı məlumat verərək Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşəbbüsü ilə dini konfessiya nümayəndələrinin bölgələrə, o cümlədən işğaldan azad edilmiş ərazilərə etdiyi səfərlərdən də danışıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasəti hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Sədr müavini bildirib ki, dini dözümlülük və tolerantlıq Azərbaycanda dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir: “Dövlət-din




siyasətinin uğurla davam etdirilməsi sayəsində ölkəmizdə tolerantlıq və birgəyaşayış mühitinin nümunəvi modeli formalaşıb, respublikamız dünyada multikulturalizm mərkəzinə çevrilib”.

S.Heydərov respublikamızda formalaşan multikulturalizm ənənələrinin xalqımızın milli sərvəti olduğunu vurğulayıb: “Azərbaycan multikulturalizm dəyərlərinin dünyada təbliği istiqamətində müxtəlif layihələri həyata keçirən bir ölkədir. Azərbaycanın multikulturalizm siyasəti dünya ölkələri üçün örnəkdir”.

Tolerantlıq və multikulturalizmin elmi əsasları barədə məlumat verən Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov respublikamızda mövcud olan dinlərarası harmoniyadan bəhs edərək deyib ki, bu gün ölkəmizdə milli və dini həmrəylik ən yüksək səviyyədədir: “44 günlük Vətən müharibəsindəki qələbəmizdə Ali Baş Komandanımız Prezident İlham Əliyevin rəhbərliyi, ordumuzun şücaəti ilə yanaşı, bu həmrəylik mühüm rol oynayıb”.

Mənəvi Dəyərlər Fondunun icraçı direktoru Mehman İsmayılov çıxışında qeyd edib ki, mənəvi dəyərlərə dövlət qayğısı Prezident İlham Əliyev siyasətinin tərkib hissəsidir. M.İsmayılov bildirib ki, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına dövlət səviyyəsində qayğı göstərilir. Vurğulayıb ki, bu dəyərlərin cəmiyyətdə milli həmrəylik, birlik ruhunu oyatdığını nəzərə alaraq onu mühafizə və təbliğ etmək labüddür.

Tədbirdə Əmircan “Bünyadlı” məscidinin imamı Həsən Kərimli, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, “Alov” xristian dini icmasının sədri İdris Məmmədov, Avropa yəhudilərinin Bakı dini icması sədrinin müavini Yevgeni Brenneysen və başqaları çıxış edərək Azərbaycandakı dinlər və mədəniyyətlərarası harmoniyadan bəhs ediblər. Ölkəmizdə mövcud olan tolerantlığı bütün dünya üçün nümunə adlandırıblar.

Tədbir bədii hissə ilə davam edib.

# “DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK”



Dekabrın 16-da İmişlidə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Din və ideoloji təhlükəsizlik” mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK sədrinin müavini Səyavuş Heydərov, İmişli Rayon İcra Hakimiyyəti (RİH) başçısının İmişli şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Fuad Kərimov, din xadimləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxış edən Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov ölkəmizdəki tolerant və multikultural mühitin bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul olunduğunu bildirib. DQİDK-nın sədr müavini Azərbaycan dövlətinin din siyasətinin əsas prioritet istiqamətlərindən danışaraq vurğulayıb ki, dövlətin bu sahədə başlıca vəzifəsi vətəndaşlarımızın dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsi, həmçinin respublikamızda milli dini kadrların hazırlanmasıdır. O, bu məqsədlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının, din xadimlərinin maddi təminatının yüksəldilməsi üçün onlara maddi dəstək verilməsinin Prezident İlham Əliyev tərəfindən atılmış uzaqgörən, məntiqli və mütərəqqi addım olduğunu diqqətə çatdırıb. Komitə rəsmisi vurğulayıb ki, dinin tərbiyəvi tərəflərinin, Vətənə, ailəyə sevgi, böyüklərə hörmət, saflıq, dürüstlük kimi milli-mənəvi dəyərlərimizlə səsləşən əxlaqi prinsiplərinin insanlara, xüsusilə mənəvi şüuru formalaşmaqda olan gənc nəslə çatdırılmasında din xadimlərinin üzərinə önəmli vəzifə düşür.

Tədbir müzakirələrlə yekunlaşıb.

***

Analoji tədbir dekabrın 19-da Şamaxı rayonunda DQİDK və Şamaxı RİH-in birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdə DQİDK sədrinin müavini Səyavuş Heydərov, RİH başçısının birinci müavini Hikmət Şikarov, Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Elnur Mehdiyev, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Rəşad Əliyev, QMİ-nin bölgə qazısı Mərəhmət Mustafayev, hüquq mühafizə orqanları, bələdiyyələr, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Şamaxı RİH başçısının birinci müavini H.Şikarov Azərbaycanın ən qədim mədəniyyət, elm, incəsənət və dini mərkəzlərindən biri olan Şamaxıda onlarla məscid və digər dini ibadət yerinin mövcud olduğunu diqqətə çatdırıb.

Dövlət Komitəsi sədrinin müavini S.Heydərov çıxış edərək bildirib ki, bu gün din amili dünyada mədəni-



əxlaqi dəyər çərçivəsindən çıxaraq kəskin şəkildə siyasiləşib. Din təkcə ictimai təfəkkürə deyil, mədəniyyətə, siyasi mövqeyə, insanların mənəvi həyatına ciddi təsir göstərən vasitəyə çevrilməkdədir. S.Heydərov qeyd edib ki, bu baxımdan dini təhlükəsizlik milli təhlükəsizliyin və ya milli dövlət təhlükəsizliyinin ən mühüm istiqamətlərindən biridir: “Yaxın Şərqdə hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərdi ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Milli təhlükəsizlik təmin edilmədən isə nə ictimai-siyasi sabitlikdən, nə demokratiyanın inkişafından, nə də hüquq və azadlıqların təmin edilməsindən bəhs etmək mümkündür”.

Dövlət Komitəsinin sədr müavini onu da vurğulayıb ki, dini məsələləri təhlükəsizlik aspektindən də dəyərləndirmək zərurəti yaranmışdır. Dinin mənəvi məzmunundan qoparılaraq siyasiləşdirilməsi bir sıra ölkələr, xüsusilə, müsəlman ölkələri üçün dini təhlükəsizliyin təminatı baxımından olduqca təhlükəlidir.

Tədbir müzakirələrlə yekunlaşıb.

# AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ HƏRBİ QULLUQÇULARLA GÖRÜŞLƏR OLUB

Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hissinin aşılanması məqsədilə Müdafiə Nazirliyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər həyata keçirir.

2022-ci il üçün təsdiq olunmuş birgə tədbirlər planına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin hərbi qulluqçularının, eləcə də Dövlət Komitəsinin nümayəndələrinin iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə hərbi qulluqçularla görüşlər keçirilib.

Görüşlərdə “Ulu Öndər Heydər Əliyevin azər-



baycançılıq məfkurəsi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması”, “Gənclərin tərbiyəsində İslam dininin rolu”, eləcə də “Azərbaycan qanunvericiliyində vicdan azadlığı və dövlət-din münasibətləri” mövzularında geniş söhbətlər aparılıb, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

Həmçinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti şəxsi heyətin diqqətinə çatdırılıb.

# ZƏRDABDA "DÜNYƏVİ DÖVLƏTDƏ DİNİ MAARİFÇİLİK İŞİNİN TƏŞKİLİ" MÖVZUSUNDA SEMİNAR-TRENİNQ KEÇİRİLİB

Dekabrın 7-8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Zərdab Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı, din xadimləri, dini icma üzvləri və rayon ziyalılarının iştirakı ilə Zərdabda "Dünyəvi dövlətdə dini maarifçilik işinin təşkili" mövzusunda növbəti seminar-treninq keçirilib.

Tədbiri giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humunitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Murad Həsənov mövzunun aktuallığından bəhs edərək bildirib ki, respublikamızda nümunəvi dövlət-din münasibətləri, dinlərarası və məzhəblərarası həmrəylik mövcuddur. RİH rəsmisi, həmçinin ölkəmizdə olan milli birliyin qorunub saxlanılması, daha da gücləndirilməsinin vacibliyinə diqqət çəkib.

Mövzu ilə bağlı təqdimatla çıxış edən DQİDK sədrinin müavini Gündüz İsmayılov dünyəvi dövlətin təməl sütunlarını təşkil edən elementlərin mühafizəsi məqsədi



ilə dini maarifçilik işinin düzgün metodlarla təşkilinin mühüm əhəmiyyət daşıdığını bildirib. Diqqətə çatdırıb ki, dinin siyasiləşdirilməsi, xarici təsir və müdaxilələr, dinə xidmət adı altında insan hüquqlarının məhdudlaşdırılması, tolerantlığın zəiflədilməsi, məzhəblərarası qarşıdurmanın yaradılmasına səylərin göstərilməsi, xurafatçı baxışın təbliği, dünyəvi təhsilə qarşı çıxışlar cəmiyyətdə parçalanma yaratmaq istəyən qüvvələrin dindarlar arasında apardıqları təbliğatın əsasını təşkil edir. Bütün bu kimi mənfi hallarla mübarizə istiqamətində dini maarifləndirmə işinin aparılması, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasının zəruriliyindən bəhs edən sədr müavini  yad dini ideologiyaların təsiri altına düşən şəxslərin teoloji məlumatlarının zəif olması səbəbilə cəmiyyətdə təhsilin və dini biliklərin paralel şəkildə insanlara təbliğ edilməli olduğunu vurğulayıb. Gündüz İsmayılov, eyni zamanda din xadimlərini bu məsələdə ayıq-sayıq olmağa, dinin əsas məqsədlərindən olan cəmiyyət, dövlət və ailə üçün faydalı, nümunəvi vətəndaş formalaşdırmaq istiqamətində səylərinə davam etməyə çağırıb.

İkigünlük seminar-treninq öz işini qarşılıqlı müzakirələrlə davam etdirib.

# "DİNİ MƏRASİMLƏR: ƏNƏNƏ VƏ HÜQUQ MÜSTƏVİSİNDƏ" MÖVZUSU MÜZAKİRƏ EDİLİB



Dekabrın 8-də Bakıda "Dini mərasimlər: ənənə və hüquq müstəvisində" mövzusunda konfrans keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə müvafiq dövlət qurumlarının nümayəndələri, dini icma sədrləri, elm və din xadimləri iştirak ediblər.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, dini mərasimlər yalnız dini qaydaları deyil, həm də xalqın adət-ənənələrini özündə əks etdirir. Adət-ənənələr, mərasimlər isə zamanla dəyişir, müasir dövrün tələblərinə uyğunlaşır, yeni forma və məzmun kəsb edir. Dini mərasimlərdə özünü döymək, qan çıxarmaq, zəncir vurmaq kimi adətlər XXI əsrin reallıqları ilə uzlaşmır. Dini mərasimlərin israfçılıqdan uzaq, mümkün qədər İslam mədəniyyətinə uyğun, eləcə də ictimai inkişafla ayaqlaşa bilən şəkildə keçirilməsi olduqca önəmlidir. Yas mərasimləri və digər ictimai mərasimlərdə israfçılığın qarşısının alınması istiqamətində təkliflərin verilməsi və bu sahənin tənzimlənməsinin vacibliyi bir neçə ildir ki, müzakirə mövzusudur. Dini mərasimlərin hüquqi cəhətdən tənzimlənməsi barədə digər ölkələrin təcrübəsini bölüşən G.İsmayılov belə ictimai məsələlərin xalqın öz iradəsi ilə tədricən  qaydaya salınmasının daha məqsədəuyğun olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, neqativ sosial təzahürlər, mənfi hallar inzibati yollarla deyil, daha çox müntəzəm maarifləndirmə tədbirlərinin həyata keçirilməsi ilə aradan qaldırılmalıdır. Mərasimlərin təşkili zamanı israfçılıq, xurafat hallarının qarşısının alınmasında cəmiyyətimizin birgə səyləri, ictimai qınaq olduqca vacibdir. Bu məqsədlə, Dövlət Komitəsi tövsiyə xarakterli çağırışlar edir, sözügedən mövzuya həsr edilən maarifləndirici tədbirlər keçirir, ədəbiyyat nəşr edir, habelə videoçarxlar hazırlayır.

Mövzu ərtafında fikirlərini bölüşən QMİ sədrinin müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev dini mərasimlər zamanı ifrata varılmanın İslam dinində bəyənilməyən əməllərdən olduğunu deyib. Dini maarifləndirmə baxımından ruhanilər və ziyalıların üzərinə böyük məsuliyyətin düşdüyünü diqqətə çatdıran din xadimi, həmçinin ölkəmizdəki inanclı şəxslər arasında mövcud olan vəhdətin, tolerant münasibətlərin mühafizəsi və inkişafı istiqamətində birgə səylərin vacibliyindən danışıb. Azərbaycanda mövcud olan dövlət-din münasibətlərinə də toxunan F.Nurullayev milli-mənəvi dəyərlə-



rin qorunub-saxlanılması, dini etiqad azadlığının təmin olunması, dindarların dini ayin və mərasimləri sərbəst yerinə yetirmələri üçün hər cür şəraitin yaradılmasından məmnunluğunu ifadə edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov isə vurğulayıb ki, Azərbaycanda dövlət-din münasibətləri dünyəvi prinsiplər əsasında qurulub. Dini mənsubiyyətindən asılı olmayaraq, dini ayinlərin, mərasimlərin icrasında hər kəs üçün bərabər şərait yaradılıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitika şöbəsinin müdiri Rəşad İlyas müxtəlif dinlərə aid mərasimlərdən söhbət açıb.  Bildirib ki, premodernizm dövründə daha çox aktuallıq kəsb etsə də, müasir gündə insanların dünyagörüşünün artması nəticəsində bəzi dini mərasim və ritualların əslində mövhumat olduğu, dinin tələbləri ilə uzlaşmadığı bəlli olur. Bu baxımdan bəzi ritualların artıq qeyri-rasional qəbul edildiyini diqqətə çatdıran çıxışçı maarifləndirmə və hüquqi yolla dini mərasimləri tənzimləməyin mümkün olduğunu vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı İradə Zərqanayeva mövzu ilə bağlı fikirlərini bölüşüb.

Tədbir müzakirələrlə yekunlaşıb.

# DÖVLƏT KOMİTƏSİNİN NÖVBƏTİ "KÖNÜLLÜ FƏALİYYƏT" LAYİHƏSİ İŞƏ BAŞLAYIB

Dekabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) "Könüllü fəaliyyət" layihəsinin yeni könüllü qrupu ilə görüş keçirilib.

DQİDK-nın Aparat rəhbəri Amil Cavadov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Azərbaycan gəncliyinin tarixi inkişafında müstəsna əhəmiyyətə malik olduğundan, bu gün də bu missiyanı Prezident İlham Əliyevin layiqincə davam etdirərək, bu siyasəti dünya miqyasında bir nümunəyə çevirməsindən bəhs edib. Bildirib ki, Prezident İlham Əliyevin gənclər siyasəti sahəsinə göstərdiyi diqqət dövlət başçımızın gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür.



O əlavə edib ki, bu qayğıdan güc alan Azərbaycan gəncliyi vətənpərvərliyi, öz xalqına, dövlətinə bağlılığı ilə fərqlənir. Komitə rəsmisi həmçinin, dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq məqsədi daşıyan könüllülük fəaliyyətinin faydalarından danışıb, könüllü hərəkatına qoşulan gənclərin gələcəkdə ixtisaslı və peşəkar kadr kimi formalaşacaqlarını bildirib.

A.Cavadov DQİDK-nın fəaliyyəti barədə könüllülərə geniş məlumat verərək bildirib ki, könüllü kimi fəaliyyət göstərib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən xüsusi sertifikatlar veriləcək ki, bu da onların gələcək əmək fəaliyyətinə uğurlu keçid fürsəti olacaq.

Görüşün sonunda könüllüləri maraqlandıran suallar cavablandırılıb.

# "DİNİ RADİKALİZM VƏ XURAFATLA MÜBARİZƏDƏ QADINLARIN YERİ VƏ ROLU" MÖVZUSU MÜZAKİRƏ EDİLİB

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə dekabrın 13-də "Dini radikalizm və xurafatla mübarizədə qadınların yeri və rolu" mövzusunda konfrans keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ölkəmizin azadlığı, müstəqilliyi və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda ilahiyyatçı və dinşünas ekspertlər, qadın təşkilatlarının rəhbərləri, hüquq müdafiəçiləri, eləcə də digər müvafiq qurumların təmsilçiləri iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova konfransın əhəmiyyətindən danışıb. Qeyd edib ki, dini radikalizmlə mübarizədə qadınların potensialından istifadə edilməsi, prosesə onların aktiv şəkildə cəlb edilməsi xüsusi önəm kəsb edir. Sözügedən istiqamətdə konfransların təşkil edilməsinin əsas məqsədi məhz bu potensialın öyrənilməsi, istifadə edilməsi, habelə təhlilinə yönəlibdir. Şöbə müdiri vurğulayıb ki, bu məqsədlə Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), Qafqaz Müsəlmanları İdarəsi, o cümlədən qeyri-hökumət təşklilatları ilə sıx əməkdaşlıq edilir.

Mövzu ilə bağlı təqdimatla çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun dekanı, dosent Elnurə Əzizova dini radikalizmə dair müxtəlif yanaşmaların ortaq baxış sistemini təşkil edən - müasir cəmiyyətlə uyğunlaşa bilməmək, yalnız digər dinlərə inananlara deyil, özündən fərqli olan dindaşlarına qarşı eksklüsivist yanaşmaq, onlara qarşı zorakılıq tətbiq etmək, bəzən bütün dünyəvi dəyərləri inkar etmək, elm, dövlət, hüquq, təhsil və qadınla əlaqəli mövzularda radikal görüşlərə sahib olmaq və bu kimi mənfi təzahürlər barədə məlumat verib. İslamda qadının yeri mövzusunun nəzəri və praktiki çərçivəsini müəyyənləşdirən amilləri vurğulayan E.Əzizova müasir cəmiyyətlə səsləşməyən, xurafat sayılan inanc və davranışların xüsusiyyətləri barədə danışaraq bəzi statistik rəqəmləri diqqətə çatdırıb.

Ardınca Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova təmsil etdiyi qurumun dini radikalizm, eləcə də xurafatla mübarizəyə verdiyi töhfələrdən danışıb. Bildirib ki, AQUPDK-nın birbaşa fəaliyyət istiqamətləri ilə bağlantılı olan məişət zorakılığı, erkən nikah, qızların təhsildən yayındırılması, iqtisadi asılılıq və digər ayrı-seçkilik halları xurafat və radikalizmə zəmin yaradan səbəblər sırasındadır. Bütün bu kimi problemlərlə mübarizə istiqamətində maarifləndirmə tədbirlərinin önəminə toxunan şöbə müdiri qadınların təhsilə cəlb edilməsi, müxtəlif dövlət orqanlarında, qurum və təşkilatlarda təmsilçiliklərinin artırılması, rəhbərlik etdikləri sahibkarlıq sahələrinin genişləndirilməsi, ümumilikdə cəmiyyətimizdə müxtəlif fəaliyyət sahələrində qadınların məsuliyyət payının artırılmasının əhəmiyyətli həll yollarından olduğunu vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Qəmər Cavadlı bildirib ki, radikalizmi yaradan səbəblər içində din faktorunun olması istisna deyil. Lakin bunu dini radikalizm adı ilə yox, din pərdəsi altında cəmiyyətdə təxribat yaratmaq istəyən bir qrupun şüarı kimi dəyərləndirməliyik. Sədr müavini radikalizmə yol açan əsas məqamlardan çıxış yolları barədə də danışıb. Məktəblərdə dinlə bağlı fənnin tədris olunması, psixoloji problemlərə diqqət çəkib, bu istiqamətlərdə müvafiq qurumların birgə əməkdaşlığının önəmini xüsusilə vurğulayıb.

Daha sonra Bakı Dövlət Universiteti, İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə elmləri doktoru, "Cığır" Mənəvi Dəyərlərin İnkişafına Dəstək İctimai Birliyinin sədri Yeganə Mirzəyeva və AMEA-nın Fəlsəfə İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə elmləri doktoru İradə Zərqanayevanın dini maarifçilik işinin həyata keçirilməsində, dini radikalizm və xurafatla mübarizədə, o cümlədən milli-mənəvi və tolerant dəyərlərin təbliğində qadınların fəal iştirakına dəstək vermək, bu sahədə onları istiqamətləndirməyin önəmi barədə çıxışları dinlənilib.

# "AZƏRBAYCAN QADINININ TOLERANT VƏ MÜTƏRƏQQİ CƏMİYYƏTİN FORMALAŞMASINDA ROLU"

Dekabrın 19-da Saatlı rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Saatlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Azərbaycan qadınının tolerant və mütərəqqi cəmiyyətin formalaşmasında rolu" mövzusunda seminar keçirilib.

Fəal qadınlar, təhsil işçiləri, psixoloqlar, gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən seminarın məqsədi dini maarifçilik işinin həyata keçirilməsində, dini radikalizm və xurafatla mübarizə, o cümlədən milli-mənəvi və tolerant dəyərlərin təbliğində qadınların fəal iştirakına dəstək vermək, bu sahədə onları istiqamətləndirməkdir.



Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva, İcra hakimiyyətinin Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Mehriban Ağayeva, Mil-Muğan Regional Təhsil İdarəsinin Saatlı rayonu üzrə təhsil sektorunun müdiri Günay Sultanova mövzu ilə bağlı fikirlərini bölüşərək, tolerant və multikultural ənənələrin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması, gənclərin humanizm, vətənpərvərlik, tolerant və milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə edilməsində qadınların üzərinə düşən öhdəliklərdən danışıblar. Bildirilib ki, savadsızlığın, dini, irqi ayrı-seçkiliyin aradan qaldırılması kimi nəcib ideyaların reallaşdırılmasında daim inkişafda olan tərəqqipərvər Azərbaycan qadınlarının rolu böyükdür. Çıxışlarda eyni zamanda, zərərli dini meyillərin yol açdığı təhdidlər və onların multikultural cəmiyyətə təsiri, həmçinin bu kimi mənfi tendensiyalarla mübarizədə cəmiyyətin bütün təbəqələrinin, xüsusən qadınların iştirakının vacibliyinə diqqət çəkilib.

Dövlət Komitəsinin əməkdaşı Aysel Abdullayeva öz növbəsində dini radikalizm, erkən nikah, xurafat və yaratdığı problemlər, eyni zamanda bütün bunlarla mübarizə istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi əsasında çəkilmiş "Ailə dəyərləri" sənədli filminin nümayiş etdirildiyi seminarın sonunda iştirakçıların sualları cavablandırılıb, Dövlət Komitəsinin nəşri olan kitablar təqdim edilib.

# EPİFANİYANIN İKİNCİ MİNİLLİYİNİ QEYD ETMƏK ÜÇÜN 100 MİLYON DOLLARLIQ LAYİHƏYƏ BAŞLANILIB

İordaniya hökuməti 2030-cu ildə Epifaniyanın ikinci minilliyini qeyd etmək məqsədilə ziyarətgahların və müqəddəs yerlərin yenidənqurma və təmir-bərpası üçün 100 milyon dollarlıq layihəyə başlayır. "Washingtonpost"un verdiyi məlumata əsasən, ölkə həmin ərəfədə ən azı bir milyon xristian zəvvarı qəbul etməyi planlaşdırır.

İlkin dəyəri 100 milyon dollar olan işlərin baş planı hazırlanaraq ictimaiyyətə təqdim olunub. İddialı planı açıqlayan fond Betaniya rayonunu inkişaf etdirmək məqsədilə hökumət tərəfindən yaradılıb.



Yeni fondun sədri, tanınmış iş adamı və keçmiş əmək naziri Samir Murad fond tərəfindən yeni Betaniya rayonunda xristianların bayram etmələri və ibadətlərini sərbəst həyata keçirmələri üçün lazımi şərait yaradılacağını deyib.

Onun rəhbərlik etdiyi layihə tərtibatçıları burada dəbli beşulduzlu otellər və bahalı restoranlar tikmək təkliflərindən imtina ediblər. Əvəzində isə Betaniyada Bibliya dövrünün atmosferini yenidən yaratmaq üçün yüksək zövqlə və ziyarətgahlara hörmət çərçivəsində hazırlanacaq orijinal qlampinq üslubunda yaşayış binalarına üstünlük veriblər. "Biz layihəmiz üçün 2000 illik tarixə malik Bibliya kəndi mövzusunu seçdik ki, zəvvarlar o dövrün atmosferini və ab-havasını tam yaşaya bilsinlər. Kənarda isə ziyarətçilər öz zövqlərinə uyğun yeməkxana seçə biləcəklər. Burada onlara orqanik məhsullardan hazırlanmış yerli yeməklər, o cümlədən Bibliyada adı keçən yabanı yerli bitkilər və yetişdirilən dənli bitkilər təklif olunacaq. Elektrik təchizatı, Wi-Fi və rabitə kabellərini yerin altından çəkəcəyik ki, yuxarıdakı heç nə zəvvarlara və turistlərə müasirliyi xatırlatmasın", - deyə layihə dizayneri açıqlama verib.

Zəvvarların yerləşdiriləcəyi obyektlərin tikintisində iştirak etmək, onlara xidmət göstərilməsi və vəftiz yerinə müşayiət olunması məqsədilə artıq doqquz dini təşkilata rəsmi təklif göndərilib.

Layihənin başlanması münasibətilə 250 fəxri qonağın itirakı ilə keçirilən təmtənəli ziyafətdə İordaniya Kralı II Abdullah, onun iki oğlu və baş nazir də iştirak ediblər.

Qeyd edək ki, qədim xristian bayramlarından olan Epifaniya İsa Məsihin anadan olması və Vəftizçi Yəhya tərəfindən İordan çayında vəftiz olunması münasibətilə keçirilir.

# “DAHA TƏHLÜKƏSİZ DÜNYA NAMİNƏ DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN TƏŞVİQİ” MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS XARİCİ MƏTBUATDA İŞIQLANDIRILIB

Brüsseldə keçirilən “Daha təhlükəsiz dünya naminə dinlər və mədəniyyətlərarası dialoqun təşviqi” mövzusunda beynəlxalq konfrans “EU Reporter” (www.eureporter.co) Avropa multimedia xəbər platformasında işıqlandırılıb.

Yazıda qeyd edilib ki, Avropanın müxtəlif ölkələrindən konfransa qoşulmuş mütəxəssislər multikulturalizm sahəsində Azərbaycan modelini yüksək qiymətləndirib, bunun hər bir ölkə üçün örnək olduğunu vurğulayıblar. Azərbaycanın multikulturalizmin sadiq tərəfdarı olduğu və bu dəyərlərin təbliğinə əhəmiyyətli səylər sərf etdiyini bildiriblər. Çıxış edənlər Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü olan “Bakı Prosesi”nin əhəmiyyətindən söz açaraq, onun hər bir ölkədə reallaşdırılmasının vacibliyinə toxunublar. Həmçinin Azərbaycana səfər etmiş din xadimləri ölkəmizdə rastlaşdıqları birgəyaşayış modelindən danışaraq bu gün multikulturalizmin Azərbaycan modelini tətbiq etməklə dünyanı bürüyən antisemitizm, islamofobiya, ksenofobiya ilə birgə mübarizə aparmağın vacibliyini diqqətə çatdırıblar.




***

Brüsseldə keçirilən beynəlxalq konfrans Türkiyə mətbuatında da işıqlandırılıb. Belə ki, “beltürk haber”, “sondakika.com”, “haber1” portalları beynəlxalq konfransın gedişatı, əhəmiyyəti barədə yazılar dərc ediblər. Xəbərlərdə qeyd edilib ki, beynəlxalq konfransın təşkili multikulturalizm modelinin təbliğinin bəşəri önəminə diqqət çəkmək, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişaf etdirilməsinin müasir dünyanı narahat edən problemlərin aradan qaldırılmasında əhəmiyyətini vurğulamaq məqsədi daşıyır. Avropanın aparıcı dövləti olan və müxtəlif mədəniyyətlərin, dinlərin təmsil olunduğu Belçikada keçirilən beynəlxalq konfrans qlobal əhəmiyyət kəsb edən bu mövzuya dünya ictimaiyyətinin diqqətini daha da artırmaq, sülhü və əmin-amanlığı təhdid edən amillərə, xüsusilə dinlərarası ixtilaflara qarşı müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyini nümayiş etdirmək məramına xidmət edir.

Eyni zamanda, yazılarda tədbir çərçivəsində baş tutan sərgi vasitəsilə konfrans iştirakçılarına multikulturalizm, dinlərarası harmoniyanın Azərbaycan modeli ilə tanış olmaq imkanı verilməsi barədə məlumat öz əksini tapıb.

# DÜNYANIN ƏN BÖYÜK MİLAD VERTEPİ İSPANİYADA AÇILIB

“Catholic.by” verdiyi məlumata görə, İspaniyanın Alikante şəhərində dünyanın ən böyük Milad vertepi (dini məzmunlu tamaşalar göstərmək üçün içində kuklalar olan qutu, səhnə) açılıb. Ondakı bəzi fiqurların hündürlüyü 20 m-ə çatır. Vertep 2019-cu ildə Ginnesin Rekordlar Kitabına daxil edilib və o vaxtdan bəri heç kim bu göstəricini üstələməyib.

2019-cu ildən bəri şəhərin meydanlarından birində quraşdırılan və Müqəddəs Ailənin fiqurlarını təmsil edən vertep “Nəhəng Vifleyem” adlanır. Vertep süni materiallardan və metaldan heykəlciklər yaradan yerli rəssam Xose Manuel Qarsiya Eskiva tərəfindən hazırlanmışdır.



Bu il Müqəddəs Ailə fiqurlarının yanına üç cadugər – Baltazar, Kaspar, Melhiorun da heykəlciyi əlavə edilib. Bundan başqa, kompozisiyaya Alikantenin müxtəlif yerlərində yerləşən altı mələk fiquru da daxildir.

“Biz Alikanteni Milad bayramının paytaxtı etmək istəyirik. Monumental axur və altı əzəmətli mələk bu xüsusi günlərdə bizə xoşbəxtlik və sevinc gətirir. Danılmaz faktdır ki, onlar artıq maraqlı turistik məkana çevriliblər və yerli ticarətin inkişafına kömək edirlər”, - deyə mer Luis Barkala bildirib.

Qeyd edək ki, Aralıq dənizi sahilində yerləşən Alikante şəhəri Valensiya muxtar icmasının bir hissəsi, eyni adlı əyalətin mərkəzidir.

# MÜQƏDDƏS AİLƏ KİLSƏSİNİN İKİ QÜLLƏSİNİN TİKİNTİSİ YEKUNLAŞIB



Barselonadakı Müqəddəs Ailə kilsəsinin (Sagrada Familia) iki qülləsi tikintinin başlanmasından yüz qırx il sonra tamamlanıb. Bu barədə “Lenta.ru” məlumat verib.

Qüllələr xristian ənənəsinə görə müjdəçilər Luka və Markı simvolizə edən öküz və aslan fiqurları ilə taclanıb. Fiqurlar heykəltəraş Xavier Kampeni tərəfindən Thassos mərmərindən hazırlanmışdır. Qədim zamanlardan həmin mərmər yunan və Roma heykəllərinin hazırlanmasında istifadə olunub. Qüllələrin hündürlüyü 135 metrdir.

Kafedralın saytında verilən məlumata görə, dekabrın 16-da Milad konsertindən sonra ilk dəfə yeni qüllələrdə bayram işıqları yanıb. İndi onlar ötən ilin dekabrında tikintisi başa çatan Məryəm qülləsi ilə birlikdə yanvarın 8-dək parlayacaqlar.

İndiyədək altı mərkəzi qüllədən üçü tamamlanıb. Kafedralın müjdəçilər Yəhya və Metyuya həsr olunmuş daha iki qülləsini inşaatçılar 2023-cü ilin sonunadək başa çatdıracaqlarını bildiriblər. İsa Məsihin qülləsi isə 2026-cı ilə qədər hazır olacaq.

Barselonadakı “Sagrada Familia” məbədinin tikintisinə 1882-ci ildə başlanılıb. Məbəd Antonio Qaudinin layihəsi əsasında tikilib. Məbədin qeyri-adi görünüşü onu Barselonanın əsas görməli yerlərindən birinə çevirib. Qaudi ömrünün 43 ilini onun tikintisinə həsr edib, bununla belə, onun gözləri qarşısında layihənin yalnız üçdə biri tamamlanıb. Qaudi qatı dindar biri idi və “Sagrada Familia” onun fikrinə görə, Əhdi-Cədidin müasir oxunuşu olmalı idi. Binanın fasadlarında Məsihin yer üzündəki həyatının əsas mərhələləri - doğum, ölüm və yenidən dirilmə ətraflı təsvir edilib.

Məbədin tikintisinin təşəbbüskarlarının qərarına əsasən, tikinti işlərinin maliyyələşdirilməsi bilavasitə prixod mənsublarının ianələri hesabına həyata keçirilməlidir. Bu da tikintinin belə uzun sürməsinin səbəblərindən biridir. Həmçinin, daş blokların istehsalının çətinliyi də tikintinin başa çatmasını gecikdirir. Kompüter modelinə əsasən, onların hər biri fərdi emal və uyğunlaşma tələb edir. Bundan əlavə, məbədin əksər çertyojları 1930-cu illərdəki vətəndaş müharibəsi zamanı itib. Kafedralın tikintisinin 2026-cı ildə Qaudinin ölümünün 100 illiyinə qədər tamamlanması planlaşdırılsa da, pandemiya səbəbindən tikinti ləngiyib.

# İSLAM ÖLKƏLƏRİNDƏ ALİ TƏHSİLİN İNKİŞAFINDA QADINLARIN ROLU MÜZAKİRƏ EDİLİB

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş qərargahında “Qadınların ali təhsildə liderliyi: Kontekst, çağırışlar və perspektivlər” mövzusunda keçirilən beynəlxalq konfransda zərif cinsin nümayəndələrinin İslam ölkələrində ali təhsilin inkişafında rolu müzakirə edilib.

Tədbirdə çıxış edən ICESCO-nun Baş direktoru Salim əl-Malik qadınların cəmiyyətdə, o cümlədən təhsildə mühüm rolundan bəhs edib. O vurğulayıb ki, qadınlar bütün sahələrdə, eyni zamanda, təhsildə təşəbbüsü ələ alanda bəşəriyyət tərəqqiyə nail olur. “Tarixdə bir çox məşhur qadın alimlər olub və onlar gender üzrə ayrı-seçkiliyə rəğmən böyük nailiyyətlər əldə ediblər. Bu gün İslam aləmində qadınların təhsildə rolu artır və bu sahədə mühüm irəliləyiş var. Lakin bəzi yoxsul ölkələrdə onların universitetlərdə təmsilçiliyi, elmi tədqiqatlarda iştirakı yetərli səviyyədə deyil. Bu məsələdə varlı ölkələrin öz qardaşlarına yardımı zəruridir”, - deyə Baş direktor vurğulayıb.

Konfransda çıxış edən Mavritaniyanın birinci xanımı Məryəm Mint Dah, Səudiyyə Ərəbistanının Şahzadə Nura Universitetinin təsisçisi və rektoru Nura bint Əbdürəhman, Şimali Afrika və Yaxın Şərqin ali təhsil ocaqlarının rəhbərləri və alimlər qadınların ali təhsildə daha çox təmsil olunması istiqamətində həyata keçiriləcək layihə və təşəbbüslərdən danışıblar. Çıxışlarda vurğulanıb ki, İslam ölkələrinin universitetləri arasında qadın əməkdaşlar və elmi tədqiqatçıların mübadiləsi məqsədilə ICESCO-nun vasitəçiliyi ilə proqramlar həyata keçirilməli, Uzaq Şərqdən və Mərkəzi Asiyadan tutmuş Avropaya qədər bütün qitələrdə yüksəkixtisaslı kadrlar bu prosesə cəlb olunmalıdır.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**"Balakən rayonu Mahamalar kəndində yerləşən Qazbinə yaşayış massivi məscidi" dini icması**

Qeydiyyat tarixi: 19 iyun 2015-ci il
Qeydiyyat №-si: 100115A – 600

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Novruzov Eldar Rəhim oğlu, Kərimov Rasim Kərim oğlu, Umarov Kamal Umar oğlu, Piriyev Müslüm Nəcməddin oğlu, Əlihüseynov Mamed Şahvələd oğlu, Novruzov Bayram Rəhim oğlu, Yusifov Əlimahama Yusif oğlu, Yumuxov Teyyub Tahir oğlu, Dadayev Əli Əsadullah oğlu, Yusifov Soltan Yusif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abdullayev Həbil Bəşir oğlu, Mamedov Asiman Ramazan oğlu, Xəlilov Mehdi Fəxrəddin oğlu, Novruzov Azər Bayram oğlu, Ömərov Elvin İntiqam oğlu, Mamedov Nicat İmran oğlu, Mamedov Nurşən İmran oğlu, Həmətiyev Kənan Əli oğlu, Piriyev Elnur Əmrullah oğlu, Barxalov Şamil Abdulsəmədoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 14 oktyabr 2022-ci il

**"Zaqatala rayonu Faldarlı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 276

